https://doi.org/10.59849/2310-5399.2023.3.95
UOT 73

**Günel Seyidəhmədli**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*(Azerbaijan)*

*gseyidehmedli@gmail.com*

# SÜNDÜ KƏNDİNİN MƏZAR DAŞLARI VƏ PİRLƏR

**Xülasə**. Qədim tarixə malik olan Sündü kəndi Qafqaz dağlarının cənub-şərq ətəklərində, Bakı şəhərindən 95 km şimalda, dəniz səviyyəsindən təqribən 750–800 m hündürlükdə yerləşir. Kənd Qobustan rayonunun digər kəndləri, şərqdən Cəyirli, Bəklə və Nabur, cənubdan Çuxanlı, şimaldan Xilmilli, qərbdən Təklə-Mirzəbaba ilə həmsərhəddir.

Sündü kəndinin maddi mədəniyyət abidələri sırasında məzarlıqlar və məzar daşları xüsusi yer tutur. Burada demək olar ki, hər tayfanın öz məzalığı mövcud idi. Bu səbəbdən kənddə məzarlıqların böyük yer tutması təsadüfi deyildir.

***Açar sözlər:*** Sündü, məzar daşları, mağara, məsçid, maddi mədəniyyət.

**Giriş**. Məzar daşları aid olduğu dövrün mədəni, dini-ictimai, ənənəvi görüşlərini zamanımıza qədər gətirib çıxaran ən önəmli qaynaqlardan biridir. Azərbaycan ərazisi müxtəlif dövrlərə və müxtəlif mədəniyyətlərə malik çoxçeşidli qəbirüstü – maddi mədəniyyət abidələri ilə zəngindir. Orta (XVI–XVIII) və XIX–XX əsrlərdə İslam dövrünün görüşlərini özündə təcəssüm etdirən məzar daşlarına Şirvan bölgəsində daha geniş formada rast gəlinməkdədir. Bu cür məzar daşlarının bir qismi də Qobustan rayonunun Sündü kəndində yerləşir.

Bu ərazidən tapılan maddi-mədəniyyət abidələri (memarlıq nümunələri, məişət əşyaları, məzar daşları və s) Sündü kəndinin nə qədər qədim tarixə malik olduğunu sübüt edir.

**Əsas materialının şərhi.** Məlum olduğu kimi, Azərbaycanın dağətəyi bölgələrində əhalinin məskunlaşması erkən tunc dövrünə – e. ə. IV minilliyə təsadüf edir. Sündü kəndində əhalinin məskunlaşması da məhz bu dövrdən

başlayır. Kəndin BuluQəhlə (“Uca”, “Hündür” qala mənasında) adlanan ərazisində tapılmış maddi mədəniyyət nümunələri – tunc alətlər, saxsı qablar onların erkən və orta tunc dövrünə aid olmasını təsdiqləyir. Daha bir nümunə Qala yerində iri daşlardan ibarət tikili qalıqların olması bu qalanın Siklopik tikinti olmasından xəbər verir. Bütün bu faktlar Sündü kəndinin tarixinin təqribən 5 min ilə yaxın olmasını sübut edir.

Bir çox tarixi abidələr - qala yerləri, qədim insanların yaşadığı kahalar (mağaralar), qəbiristanlıqlar bu gün də kəndin ərazisində durmaqdadır. 14 mağara kompleksindən ibarət olan Qəhlə kahaları, Çuxanlı kahası, “Aşağı” və “Yuxarı” şəhid qəbristanlıqları bu kəndin qədim abidələrindəndir. Şəhid qəbiristanlıqlarındakı qəbir daşları VII–VIII əsrdə bu ərazidə baş vermiş Ərəb-Xəzər müharibələri zamanı həlak olmuş müsəlman döyüşçülərinə məxsus olması təxmin edilir.

Sündü kəndinin ölkə əhəmiyyətli Qədirtəpə kurqanı (tunc dövrü), Köhnə qəbiristanlıq (orta əsrlər),Quyulu mağaralar–2 ədəd (orta əsrlərə), Mağaralar–12 ədəd (orta əsrlər), Qəzənfər quyulu mağaralar–2 ədəd (orta əsrlər), Qədim yaşayış yeri (orta əsrlər) və X əsrə aid (920) yerli əhəmiyyətli Azərbaycan ərazisində ilk məsçidlərdən hesab edilən Sündü kənd məsçidi kimi abidələri mövcuddur.

Sündü kəndinin maddi mədəniyyət abidələri sırasında məzarlıqlar və məzar daşları xüsusi yer tutur. Hazırda kənd ərazisində 32 məzarlıq mövcuddur. Sündünün böyüməyə başladığı zamanlarda məzarlıqlar kəndin içində yerləşirdi və burada iki ailəvi, qalan məzarlıqların isə kütləvi şəkildə idi. Kənd böyüdükcə məzarlıqlar kəndin ətrafında salınmağa başlandı. Bunun nəticəsində ən qədim məzarlıqlar kəndin içində qalmış və məzarlıqların sıradan çıxmasına səbəb olmuşdu. Yeni tikilən evlərin və yeni salınan yolların altında qalan, bağ və əkin sahələrinin şumlanması nəticəsində məhv olan, mal-qaranın otlaq sahələrinə çevrilən məzarlıqlardan qalan qalıntılar tamamilə yox olmaq təhlükəsi ilə üzüzədir. Eyni problem Azərbaycanın digər bölgələrində də müşahidə olunur. Əslində bu təbii prosesdir. Sadə kənd əhli tarixi əhəmiyyətli, mədəniirs daşıyıcısı dəyərində olan abidələri qorumaq iqtidarında deyil. Bütün bu abidələr bir başa dövlət qorunmasına və nəzarətinə götürülməlidir. Hələ ki, Sündü kənd məsçidi və kurqanlardan savayı heç bir mədəni abidə dövlət tərəfindən siyahıya alınmayıb.

Kənd ərazisində yerləşən qəbirstanlıqları yerləşdiyicoğrafigöstəricilərinə görə aşağdakı qruplara ayıra bilərik:

I. Kiçik Sündü ərazisində yerləşən məzarlıqlar (XVII–XIX):
II. Sündü kəndinin şərq ətrafında yerləşən məzarlıqlar (XVI–XIX).
III. Kəndin mərkəzində yerləşən məzarlıqlar (XVII–XIX).
IV. Kəndin şimal-şərqində yerləşən məzarlıqlar (XVII–XIX).
V. Kəndin şimal-qərbində yerləşən məzarlıqlar (VII–XIX)

Yuxarıda sadalanan qəbirstanlıqlar coğrafi ərazilərinə görə qruplaşsa da aid olduğu dövrlər müxtəlifdir. Kənd ərazisində ən qədim qəbirstanlıq Kurqan qəbirstanlığı (e.ə. I minillik) sayılır.

Kənd əhalisinin verdiyi məlumata görə təxminən 50 il bundan öncə texniki maşınların səhvi ucbatında böyük kurqanın üstü açılmış və içəridəki otaq görünən vəziyyətə gəlmişdir. Sonrada qoparılmış torpaq sahəsi yenidən yerinə tökülmüş və üzəri bağlanmışdır. Yan-yana yerləşən iki kurqanın biri digərindən həm həcminə, həm də hündürlüyünə görə böyükdür. Birinci kurqanın yerdən hündürlüyü 2 m, diametri isə 3 m-ə qədər, digər ikinci kurqanın yerdən hündürlüyü 3 m, diametri isə 4 m-ə yaxındır. Kurqanlar kromlexlərlə əhatə olunmayıb.

Maraqlısı budur ki, kurqanların üzərində üst görüntüdən sarkofaqı xatırladan daş qutuya bənzər, qapaq rolunu oynayan qəbirlər yerləşir (şəkil 2). Bu qəbirlər formasına görə Azərbaycan ərazisində indiyə qədər rast gəlinməyən bir formadadır və təxminən X–XV əsrlərə aid olunduğu güman edilir. Daş qəbirlərin uzunluğu 3 m, eni 1m, hündürlüyü isə 15-20 sm-ə yaxındır, yuxarı hissəsi (qapaq hissə) məzkəzi qabartmalı, sağ və sol-yan hissələri yastı olub, hər 3 hissə 30 sm-dən ibarətdir. Kənd ərazisi su ilə zəngin olduğundan burada baş verən vaxt aşırı sel yumaları adətən qəbirləri yuyub aparır və bəzi qəbirlərin üstü açılırdı. Bu səbəbdən müəyyən dövr ərzində qeyd etdiyimiz üst hissədən qutuya bənzər daş qəbirlərdən istifadə olundu. Yerin altında qəbir hazırlanandan sonra daş qutular onun üzərinə qoyulurdu. Bəzi qutuların içinin boş olması uzaq məsafəndən gətirilən daşların ağırlığını azaltmaq səbəbi ilə əlaqədardır.

Pireyvaz qəbirstanlığı (e.ə. I minillik). Kəndin digər ən qədim qəbirstanlığı Pireyvaz hesab edilir. Qəbirstanlığın quruluşundan məlumdur olur ki, vaxti ilə burada dini inanaclar, rituallar yerinə yetirilib. Hal-hazırda qəbirstanlıq yol üstündə və yaşayış evlərinin arsındadır, amma onun salındığı vaxtlar yaşayış yerindən kifayət qədər uzaq oluğu aydın məsələdir.

Sonradan yerli əhali buranı pirə çevirib, ətrafında daha çox kiçik yaşlı uşaqları dəfn etmişdilər. Ərazidə I minilliyə aid abidə yalnız kromlex abidəsidir. Qalan qəbirlərin ən qədimi XVII–XVIII əsrə aiddir və ümumi

10-a yaxın qəbir dövrümüzə qədər çatmışdır. Onların bədii tərtibatları şirvan məktəbi üsulunda həll olunub: sənduqə formalı sinə daşı və çatmatağlı başdaşı.

Kənd ərazisində rast gəlinən qəbirlərin nə qədər qədimə aid olmasını onun üzərindəki yazılardan müəyyən etmək olar. Təssüf ki, oxuna bilən rəqəmlərdən ən qədim qəbirlərin az bir qismi yalnız XVII əsrə aiddir, qalan qəbirlərin üzərindəki ya yazılar oxunmaz haldadır, ya qəbir dağılmış ya da ümumiyyətlə daşın üzərində heç bir işarə yoxdur.

Papaqçılı qəbirstanlığında demək olar əksər qəbirlər dağılmışdır. Burada mövcud olan qutu qapaq formalı və aşınma zamanı sürüşən torpaqdan aydın görünən bir neçə üst-üstə basdırılmış qəbirlər məzarlığın X əsrdən əvvələ aid olduğunu göstərir.

Yuxarı şəhidlər qəbirstanlığı (VII–VIII əsrlər) və Aşağı şəhidlər qəbirstanlığı (VII–VIII əsrlər) kənd içində Ərəb-Xəzər müharibələri zamanı həlak olmuş döyüşçülərin dəfn yeri kimi məşhurdur. Yuxarı şəhid məzarlığında dar ensiz sənduqələr və qutu qapaq formalı qəbirlərə rast gəlinir. Eroziyaya uğramış daşların üzərində heç bir tərtibat görmək mümkün deyil. Aşağı şəhidlər məzarlığında isə yalnız nişangah xarakteri daşıyan qəbir daşları mövcuddur.

Abbas qəlbi qəbirstanlığı (təx. XVIII–XIX əsrlər). Bu məzarlığın niyə bu adla adlanması ilə maraqlananda maraqlı faktlar ortaya çıxdı. Azərbaycan Rusiya tərəfindən işğal olunandan sonra Çar hökümətinə xidmətləri müqabilində kiçik Sündü ərazisi Şeyda bəyə və onun ailəsinə tiyul kimi verilir. Zamanla burada yalnız bu nəsildən olan insanlar basdırılmağa başlayır. Sonrada bura kütləvi məzarlığa çevrilir. (burada qəlbi sözü-uçulmuş mülk, yarım qalmış bina anlamına gəlir).

Köhnə Pirdar qəbirstanlığı (XVI–XIX əsr) və yeni Pirdar qəbirstanlığı (XX–XXI əsrlər). Təxminən 1,5 ha ərazini əhatə etməklə XVI əsrdən bu yana, həm sovet, həm də müasir dövrün məzarları burada var olmaqdadır (şəkil 4). Əsas diqqəti çəkən qəbirlər sovet dövrünə (XX əsrə) məxsus qəbirlərdir ki, onlar bədii tərtibatına görə sanki Sofi-Həmid məzarlığını xatırladır.

Bu dövrün məzar daşlarının yazıları həm farsca, həm də köhnə əlifba ilə yazılır, təsvirlər sırasına ay-ulduz (beş guşəli ulduz), müxtəlif məişət əşyaları (təsbeh, çaynik, uzunboğaz çəkmə) daxil olur. Əslində bu təsvirlərin bəzilərini XVIII–XIX əsrlərə aid qəbirlərin üzərində də görmək olur, amma qeyd etdiyimiz təsvirlər öz dövrünün müasir formasında əks olunmuşdur və bu cəhət onları özündən əvvəllki təzahüründən fərqləndirən əsas əlamətdir.

Ş.Şikarov adına məktəbin yan və üst hissəsində yerləşən qəbirstanlıqlar (XVII–XIX əsrlər). Bu qəbirstanlıq da kəndin qədim qəbistanlıqlarından hesab olunur, təxminən 2 ha ərazini əhatə edir. Burada bir neçə formada məzar daşlarına rast gəlmək mümkündür. Ən çox rast gəlinən forma sənduqə formalı sinə daşı və hündür baş daşlarıdır. Qeyd etmiyimiz kimi bu tip qəbirlər XVII əsrdən etibarən salınmağa başlayıb və bədii tərtibatına görə zəngin ornamental, eyni zamanda nəfis xəttalıq nümunələri ilə fərqlənir. Bu tip qəbirlərin əksəriyyəti ölçü və tərtibat baxımından eynilik təşkil edir və ya kiçik detallarla fərqlənir. Bu da daşların ənənəvi şəkildə bir nəsil usta tərəfindən və ya bir məktəbdən çıxmasının bariz nümunəsidir (şəkil 5). Sənduqələrin eni adətən 50–60 sm, uzunluğu 1,80 sm – 2 m arasında, baş daşlarının uzunluğu 2,8 sm – 3 m, eni 45–50 sm, yan hissələri 23–30 sm arasında dəyişir. Oxuna bilən məzarların üzərindəki hicri tarixi 1273, 1307, 1309, 1329 və s. ilə yazılmış rəqəmləri görmək mümkündür ki, bu tarixlər də miladi ilə XIX əsrə təsadüf edir. Qəbirlərin üzərində hicri 1300-dən sonrakı tarix qeyd olunmadığına görə burada dəfn olunma prosesinin elə XIX əsrdə dayandılıdığı aydın olur. Amma məzarlığın nə qədər qədim olmasını demək çətin məsələdir. Məzarlıqda başqa formalı qəbirlərin və bədii məktəblərin mövcudluğu, məzarlıqda bir neçə nəsil üst-üstə dəfn olunma, məzarlığın tarixinin bir neçə əsr əvvələ aid olamsınıngöstəricisidir.

Pirimsaat qəbirstanlığı (XVII–XVIII əsr) kəndin içində yerləşir və hasarlanmış məzarlıqdır. Ola bilər ki bir neçə əsr bundan öncə bu qəbirstanlıq daha geniş ərazini əhatə edib, amma hal hazırda onun ərazisi 30x15 m-dir. 1960-ci ildən sonra buraya dəfn olunma dayandırılıb. Məkana baxış zamanı uşaq qəbirlərinın daha çox üstünlük təşkil etdiyi görmək olar.

Qəbirstanlıq bir neçə məqamlarla marağı cəlb edir. İlk öncə qeyd edək ki, qəbirstanlığın yan tərəfində Pirimsaat deyilən türbə yerləşir.

İnsan başını xatırladan baş daşıları və daş qutu (qapaq) formalı qəbirlərin mövcudluğu qəbirstanlığıntarixni daha qədimə aparır.

Əli bulağının üstündə yerləşən qəbirstanlıq (XVIII əsr). Bu məzarlıq çox qədim olduğundan məzarlığın çox hissəsi dağılmışdır. Dövrümüzə 60x30m-ə sahədə mövcud olan sənduqə və qutu qapaq formalı qəbirlər çatmışdır.

Namazgah qəbirstanlığı (XVI–XVIII) və Soltan bulağı qəbirstanlığı (ətrafında 6 qədim məzalıq yerləşir, eramızın I minilliyi). Məzarlıq 1 ha-dan çox ərazini əhatə edir. Burada düzbucaqlı lövhə formasında olan baş daşlarına daha çox rast gəlinir. Digər qəbirlər ənənəvi klassik formalı səndugə

sinə daşlı və hündür baş daşlı (baş daşı: h–3 m, eni 45–50 sm, qalınlıq 23–25 sm arasında dəyişir; sinə daşı: uzunluğu 1,6–2 m, h-43–45 sm, eni 40–43 sm arasında dəyişir) qəbirlərdir ki onlar da XVIII–XIX əsrlərə aiddir. Məzar daşlarının üzərilərində qeyd olunan tarixlərdən (hicri ilə: 1290, 1242, 1214, 1374, 1200, 1211, 1244 və s.) onların XVIII–XIX əsərlərə aid olduğu sübüt olunur.

Şıxzəyirli qəbirstanlığı (XVIII–XX əsrlər). Bu məzarlıq içində mövcud olan Şıxzəyirli piri ilə məşhurdur. Kiçik ərazini əhatə edən məzarlıq həm kalssik formalı sənduqə qəbirlərlə, həm də sovet dövründə formalaşmağa başlayan özünəməxsus sinə və baş daşlı qəbirlərlə əhatələnib. Sovet dövrünə aid olan qəbirlərin üzərində yazılar bir hissədə ərəb-farsca, bir hissə isə köhnə əlifba ilə yazılır və bu dövrün geniş yayılmış təsvirləri beş güşəli ulduz və hilalla tərtib olunurdu. 1950-ci ildən sonra sinə daşlarının hündürlüyü kiçilməyə, baş daşlarının üzərində məsçid təsvirləri və eləcədə mərhumun portreti əlavə olunmağa başladı. Bəzən də yazılar kiçik lövhənin üzərində yazılırıdı.

Kənddən bir xeyli aralı məsafədə yerləşən Çanaqbulaq qəbirstanlığı kiçik ərazini əhatə etməklə XVIII–XIX (qəbirlərin üzərlərin hicri tarixi ilə 1272, 1201, 1205, 1310 və s. tarixlər qeyd olunmuşdur) əsrlərə aid qəbirləri özündə cəmləyir. Deyilənə görə bura yaylağa gələnlərin dəfn yeri olub. Hal-hazırda burada 16 baş daşı qalmaqdadır. Məzarlığı özəl edən xüsusiyyət burada yerləşən baş daşlarının nəfis tərtibatıdır. Sinə daşı klassik sənduqə formalı, baş daşlarını isə kəndin ən gözəl tərtib olunmuş baş daşları adlandırmaq olar. Baş daşları standart ölçüdə və tərtibatdadır (baş daşı: h-3 m, eni 50 sm, yan hissə – 25 sm). Zanbaq gülü formasında bitən baş daşları ön hissədən sətirlərə bölünərək üzərində epiqrafik nümunələr həkk olunmuş və yazılar nəbati ornamentlərlə haşiyəyə alınmışdır. Arxa hissəsində isə müxtəlif təsvirlər at, qılınc, xəncər, tüfəng, patron qabı, tənbəki qabı, uzunboğaz çəkmə, sidr ağacı və digər nəbati motivlər mövcuddur. Bu məzarlığı həm konstruktiv quruluşuna, həm də tərtibatına görə Şamaxıda yerləşən "Yeddi günbəz" məzalığı ilə müqaisə etmək olar.

Kənddə yerləşən pirlər. Adətən qəbir abidələrinin böyük əksəriyyətinin müqəddəs hesab olunan şəxslərin dəfn olunduğu məkanın ətrafında salınması təbii hal idi. Bəzi hallarda bu şəxslərin qəbirləri üzərində təmtərqlı türbələr, bəzən kiçik türbələr, bəzən nişangah xarakterli tiklilər ucaldır, bəzən isə heç nə tikilmirdi. Bu səbəbdən kənd ərazisində 30-dan çox müqəddəs ocaq və ziyarətgahlar mövcud olsa da onların yalnız bir-ikisinin üzərində kiçik türbələr var. Qalan pirlər ya nişangah kimi ya da sadəcə ad olaraqmövcuddur.

Məşhur alim Məşədixanım Nemətovanın fikrincə kitabələrdə əsasən "mürşid" mənasında işlədilmiş ərəbcə "Şeyx", "həzrət", farca "pir", azərbaycanca "baba", "ağa" sözləri böyük ruhani alimlərə, sosial ideoloji-mədəni mərkəzlərin rəhbərlərinə verilən ləqəblər idi [6].

Kənd ərazisində bulunan Qərbi piri (ziyil piri), Öskürək piri, Sofya Banu piri, Pir Eyvaz piri, Savalan piri (çöpə kömək edir), Uşaq piri, 7 qardaş piri, Dəmrov piri, Mal piri, Pirimsaat piri, Pirdar piri, Pirabdulkərim piri, Şahnəzi piri, Qədirli piri (qadınlar üçün), Şıxlı yurdu piri, Şıxzəyirli piri və s. adlı pirlər kənd əhalisinin daim ziyarət etdikləri, nəzir və qurban gətirdikləri müqəddəs yerlər idi.

Bu cür ziyarətgahların yaranması həm də İslam dinin insanların dünyagörüşünə və həyat tərzinə göstərdiyi əsaslı təsirlə də bağlıdır. Həkimlərin və xəstəxanaların çox olmadığı bir dövrdə insanların şəfa tapmaq və ya hər hansı bir niyyət üçün pirlərə üz tutması qəbul olunan və təbii qarşılanan hal almışdı. Yuxarıda sadalanan pirlərin adından da göründüyü kimi hər bir pir konkret problemlərə xidmət edirdi. Məsələn Pirdar piri dara düşən, çətin vəziyyətlə qarşılaşan, çıxış yolları axtaran insanların ziyarət yeri idi. Öskürək piri öskürəkdən (göy öskürək) əziyyət çəkən uşaqların və böyüklərin pənah gətirdikləri pir idi. Savalan piri çöpü qalmış insanlara kömək edirdi. Uşaq pirinə hər hansı xəstəlikdən əziyyət çəkən uşaqları gətirirdilər. Dəmrov piri adından da göründüyü kimi dəri xəstəliyindən əziyyət çəkən insanlar ziyarətgahı idi. Qədirli pirinə xəstə qadınlar müalicə üçün gəlirdilər. Şıxzəyirli piri sonsuz qadınlara və kişilərə kömək edən pir idi. Bu pirlərin arasında ən ağırı 7 qardaş piri hesab olunur. Kəndlilər 7 qardaş pirini nadir hallarda ziyarət edir və hətta bu pirin qəzəbindən qorxduqları üçün bəzən pirin yanından belə keçməyə ehtiyat edirlər.

Pirim saat piri. Qəbirstanlığın içində yerləşən türbə planda düzbucaqlı şəkilli olub, ənənəvi Şirvan pirlərini xatırladır. Türbənin sahəsi 3x4m, divarlarının qalınlığı 60 sm, günbəzlə birlikdə hündürlüyü 5m-dir. Şamaxı rayonunun bir neçə kəndində bu formatda memarlıq həlli olan bir neçə pirlər mövcuddur. Misal olaraq ŞıxEyyub babanın, Pirsaat pirinin, Pirabdulkərim pirlərinin türbəsini göstərə bilərik. Bu pirlərin digər türbələrdən fərqi günbəz hissəsinin konusvari formada həlli və divarların üzərindən birbaşa keçid olmadan yerləşməsidir. Bu keçid xətti eksetyerdən müşahidə olunmur, amma interyerdən maraqlı görüntü qazanır. Türbənin içində övliya hesab olunan 3 qardaşdan birinin qəbri yerləşir. Hesab olunur ki, pir əsəb xəstəliyindən əziyyət çəkən insanlara kömək edir. Türbənin üzərindəki kitabədə hic-

ri tarixi ilə 1371-ci il (miladi 1950–51-ci il) qeyd olunub. Amma bu tarix türbənin qətiyyən tikildiyi tarix deyil, çox güman ki bərpa olunduğu tarixdir. Türbənin təxminən XVI–XVII əsrlərə aid olunduğu güman edilir.

Şıxzeyirli piri unikal quruluşuna görə digər pirlərdən fərqlənir. XVIII əsrə aid olduğu güman edilən pir kvadrat planda hasara alınmış divarların içində qəbrə bənzər konstruktiv quruluşa malikdir. Pirin sinə daşı 4 pillədən ibarət olub baş daşına doğru istiqamətlənir. Baş daşı isə qapı formasında keçid kimi, arka şəkilli, çatmatağla bitir. Arkanın yan hissələri dekorativ elementlərlə daha çox həndəsi və nəbati ornamentlərlə tətib olunmuş, yan hissələrinin yuxarısında yazılar görünməkdədir. Arkanın hündürlüyü 1.80 sm, qalınlığı 20 sm, eni 80 sm-dir. Hesab olunur ki, pillələrin üzərinə qoyulmuş daş, burda oturub dua edən qadınların qucağına qoyulurmuş.

Qeyd olunan məzarlıqların bədii xüsusiyyətlərindən danışırkən iki məqamı vurğulamaq lazımdır. Birincisi burda rast gəlinən qəbir abidələrinin Şirvan məktəbinə aid olmasıdır ki,məzar daşlarının bədii xüsusiyyətlərini bir ana xətdə birləşdirir. İkinci məqam çox qədim dövrə aid olan qəbirlərin şirvan məktəbindən kəskin fərqlənməsidir. Buna kənddə yerləşən sarkofaqa bənzər, daş qutu, qapağı xatırladan və balbal tipli qəbirləri göstərmək olar. Şirvan məktəbinin ənənəvi qəbir daşları 2 m-ə yaxın və ya 2 m-dən hündür baş daşları və sənduqə formalı sinə daşlarının XVII əsrdən etibarən formalaşdığını deyə bilərik. Bu dövrə qədər digər formalı qəbir daşları da mövcud olub. Onların çox hissəsi bizim dövrə çatmayıb. Çatanlar isə dağılmış və ya üzəri oxunmaz haldadır.

Məzar daşlarının (sinə və baş daşları) düzəldilməsində material olaraq Pirxəmiş deyilən yerdən (Soltanbulağın üstündə yerləşən karxana) çıxarılan daşlardan istifadə olunurdu. Bəzi hallarda isə daşlar Xilə və Tava qışlağından gətirilirdi.

Məzarların üzərində həkk olunan yazı nümunələrində xəttatlar bir neçə kalliqrafik xəttlərdən istifadə edərək ərəb və fars dillərində İslam dinin müqəddəs kitabı olan Qurani-Kərimin Əl-Bəqara surəsinin 255, 256, 257-ci ayələrindən, Əl-rəhman surəsinin 26, 27 ayələrini, kəlmeyi-şəhadət, Allah tərəfindən rəhmət və bağışlanma duaları, mərhumların həyatda ikən məşğul olduqları sənətləri, vəzifələri, adları, soyadları, ata adları (qadın qəbirlərinin üzərində adətən adları yazılmırdı) və hicri tarixi ilə ölüm tarixləri və kim tərəfindən düzəldilməyi haqda məlumat qeyd olunurdu [7, s. 122].

**Nəticə**. Sündü kəndindən çıxan daşların möhkəmliliyi, yağışa, qara, günəşə qarşı dözümlü və eyni zamanda yonulmaya itaətli olduğu üçün bütün Şirvana məzar daşları burdan gedirdi. Vaxtı ilə köhnə ustalar qaya parçalarını özlərinin

bildikləri fəndlə rahatca qayadan ayıra bilirdilər. Onlar daşların üzərində paazla, toxmaqla kan (nov) açır,üzərinə yanpara deyilən dəmir alətlər qoyur və toxmaqla üzərinə vurur, çox güc sərf etmədən qaya parçalarını qayadan ayırırdılar. Məzar daşları daha çox əhəng daşının məxməri adlanan növündən hazırlanırdı. Təmiz tərkibə malik olandaş ona görə məxməri adlanırdı ki onun içində balıq qulağıvə digər hissələr olmurdu və daşa hamarlıq verirdi.

Sündü kəndinin məzar daşı ustalarında olan, Surxay Süleymanlı, Balanəhmət Nəhmətli, Mirzə Nəhmətli, Sirac Nəhmətli, SəfxanNəhmətli, Əliyar Nəhmətlinin adlarını çəkmək olar ki, onlar XIX əsrdən bu yana daş yonma və məzar daşı ustaları kimi bütün Şirvanda tanınmışdılar.

## ŞƏKİLLƏR



**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**



**Şəkil 4**



**Şəkil 5**



**Şəkil 6**

## ƏDƏBİYYAT:


1. Seyidov A., Əlibəyova G. Qədim türklərin qəbir tipləri – Kurqanlar. // Uluslararası Geleneksel Türk Məzar Taşları. – Bakı, 2018. – s. 9-17.
2. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. – Bakı, 1992.
3. Rüstəmova S. http://1905.az/1918-ci-il-az%C9%99rbaycanlilarin-soyqirimi-bakida-mart-qirginlari/
4. Seyidəhmədli G. Sofi-Həmidin məzar daşları. // III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumun materialları. – Bakı, 2012.
5. Fətullayev-Fiqarov Ş. Memar İ.K.Ploşko - "İsmailiyyə"nin memarı. – Bakı, 2013.
6. Nemət N. Azərbaycanda pirlər. – Bakı, 1992.
7. Əliyeva H. Azerbaycandakı tarihi mezar taşlarının epiqrafik kitabeleri ve mevcut durumları hakkında. // I Uluslararası Geleneksel Türk Məzar Taşları. – Bakı, 2018.

***Gunel Seyidahmedli (Azerbaijan)***

**TOMBSTONES OF SUNDU VILLAGE AND SACRED PLACES**

Sunduvillage, which has an ancient history, is located at the south-eastern foot of Caucasus Mountains, in 95 km north of Baku, at a height of approximately 750–800 m above sea level. The village is bordered by the other villages of Gobustan, by Jeyirli, Bekle and Nabur in the east, by Chukhanli in the south, by Khilmili in the north, by Tekle-Mirzebaba in the west.

Cemeteries and tombstones occupy a special place among the material cultural monuments of Sundu village. Almost every tribe had its own cemetery here. For this reason, it is not accidental that cemeteries occupy a large place in the village.

***Key words:*** Sundu, tombstones, cave, mosque, culture.

***Гюнель Сеидахмедли (Азербайджан)***

**НАДГРОБИЯ СЕЛА СУНДУ И СВЯТЫЕ МЕСТА**

Село Сунду, имеющее древнюю историю, расположено у юго-восточного подножия Кавказских гор, в 95 км к северу от Баку, на высоте примерно 750–800 м над уровнем моря. Село граничит с другими селами Гобустана, Джейирли, Бекле и Набур на востоке, Чуханлы на юге, Хилмили на севере, Текле-Мирзабаба на западе.

Особое место среди материальных памятников культуры села Сунду занимают кладбища и надгробия. Почти каждое племя имело здесь свое кладбище. По этой причине не случайно большое место в селе занимают кладбища.

***Ключевые слова:*** Сунду, надгробия, пещера, мечеть, материальная культура.